*Sehran SƏFƏROV*

# AZƏRBAYCAN MƏSƏLƏSİNİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNƏ ÇIXARILMASINDA BÖYÜK BRİTANİYANIN YERI VƏ ROLU (1919-1920-ci illər)

**Açar sözlər:** Paris sülh konfransı,Brinci Dünya Müharibəsi,Azərbaycan Xalq Cumhuriyyəti, Mudros sülh müqaviləsi, Böyük Britaniya, Azərbaycan diplomatları, Azərbaycan-Britaniya əlaqələri, De-fakto, De-yure, ittifaq dövlətləri.

**Key words:** Paris Peace Conference, First World War, Azerbaijan People's Republic, Mudros Peace Treaty, UK, Azerbaijan Diplomats, Azerbaijani-British Relations, De-Facto, De-Yure, Union States.

**Ключевые слова:** Парижская мирная конференция, Первая мировая война, Азербайджанская Народная Республика, Мудросский мирный договор, Великобритания, азербайджанские дипломаты, азербайджано-британские отношения, де-факто, деюре, союзные государства.

Paris sülh konfransı ərəfəsində Azərbaycan bir sıra çətinliklərlə üzləşmiş və demək olar ki, bu çətinlikləri böyük uğurla həll edə bilmişdi. Belə ki, Rusiyada bolşevik çevrilişi ilə ingilislərin Bakıda olduğu illər arasında Azərbaycandakı siyasi vəziyyət heç də sabit olmamışdır.Ancaq buna baxmayaraq Cühmuriyyət öz varlığını qorumağa nail olmuşdur.

Baş verən hadisələr zəmnində birinci Dünya müharibəsinin nəticəsi kimi Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni məsələ olaraq ortaya çıxmasına şərait yaratdı. Belə ki, Denstirvilin Bakıya gəlişi artıq dünya siyasi şəraitində Azərbaycan reallığının kəsb edilməsinə yol açmışdı.

Beləliklə, Avqustun 17-də Denstirvilin ekspedisiya korpusu Bakıya gəldi. Ancaq Denstirvilin Mərkəzi Xəzər Diktaturası ilə münasibətləri alınmadı. Çünki türklərlə mübarizədə Denstirvilə yerli hərbi dəstələrdən lazımi dəstək görmədiyindən Bakını tərk etməyi üstün tutdu. Nəticədə sentyabrın 14-də Britaniya qoşunları İrana çəkildilər, Bakı isə Azərbaycan-Osmanlı ordusu tərəfindən tutuldu. Amma türk qoşunları Azərbaycan paytaxtında çox qala bilmədilər. Beləki 30 oktyabr 1918 ci ildə imzalanan Mudros sülh razılaşmasına əsasən Osmanlı dövləti öz qoşunlarını keçmiş Rus imperiyasının ərazisindən çıxarmalı idi. Türklərin əvəzinə yenidən britaniyalılar bölgəyə gəldilər. Mudros sülh sazişi imzalandıqdan sonra Böyük Britaniyanın Müdafiə Nazirliyi Mesopotamiyadakı Britaniya





komandanlığına Bakının işğalı haqqında əmr göndərdi və bu vəzifəni İranın şimal hissəsində yerləşən ingilis qoşunlarının komandanı general Uilyam Tomsonun üzərinə qoydu. Belə olan təqdirdə Azərbaycan Xalq Cumhuriyyəti, öz növbəsində Nəsib bəy Yusifbəyli, Musa Rəfiyev və Əhməd bəy Ağaoğlundan ibarət xüsusi nümayəndə heyətini general Tomsonla danışıqlar aparmaq üçün Ənzəliyə göndərdi.

Noyabrın 16-da general Tomson Azərbaycan Xalq Cumhuriyyətinin nümayəndələri ilə görüşdü və bu bəyanatı verdi:

1. Noyabrın 17-si səhər saat 10:00-a yaxın Bakı bütün qoşunlardan, o cümlədən azərbaycanlılardan və türklərdən təmizlənməlidir.
2. Bakının neft mədənləri işğal ediləcək, ölkənin qalan hissəsi Azərbaycan hökumətinin və onun qoşunlarının nəzarəti altında qalacaq.
3. Azərbaycan rəsmi olaraq tanınmayacaq, ancaq İngiltərənin, Fransanın və Amerikanın nümayəndələri "de-fakto" olaraq onunla əlaqə yaradacaqlar [10, s. 80].

Bundan başqa, Tomson özünü Bakının general-qubernatoru elan etdi və britaniyalılara şəhər polisinə başçılıq etmək əmrini verdi,amma bununla yanaşı Azərbaycan şəhər Dumasına sərbəstlik verdi. Tomson həmçinin söz verdi ki, Azərbaycan Paris sülh konfransında öz milli-müqəddəratını həll etmək prinsipləri diskussiyasından kənarda qalmayacaq və silahlı ermənilər Bakıya buraxılmayacaq. Belə bir şəraitdə, kifayət qədər daxili təşkilatçılığı və güclü silahlı qüvvələri olmayan AXC hökuməti Tomsonun şərtlərini qəbul etmək məcburiyyətində qalsa da Antanta dövlətləri tərəfindən öz ölkəsinin müstəqilliyinin tanınması ümidini itirmirdi. Nəticədə qəzetlərdə belə məlumatlar verilməklə yanaşı, cəmiyyətdə də belə bir fikir formalaşırdı ki, guya Azərbaycan hökuməti özü britaniya qoşunlarını ölkəyə dəvət edib. Hökumətin rəsmi orqanı olan "Azərbaycan" qəzeti Azərbaycan Nazirlər Kabinetinin sədri Fətəli Xan Xoyski ilə general Tomsonun bir-biri ilə mübadilə apardığı teleqramları çap etdi: "Azərbaycan hökuməti sizin komandanlığınız altında müttəfiq qoşunların noyabrın 17-də Bakıya daxil olmasına etiraz etmir.Hökumət əmindir ki, qoşunların daxil olması Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmayacaq" [1, s. 338].

Qeyd etmək lazımdır ki, Azərbaycanın işğalı müttəfiqlərin birgə işi ilə həyata keçirilirdi. "Yəni Bakıda rəsmi olaraq ingilis hərbi qüvvələri olsa da, Fransa və ABŞ-nın nümayəndələri də Azərbaycana gəlmişdilər" [9, s.68]. Bu vəziyyət daha sonra Paris sülh konfransında həmin nümayəndələrin Bakıdakı hadisələri yaxından müşahidə edib öz mövqeylərini bildirmələri baxımından Azərbaycan üçün müsbət hal olmuşdur.

Tomson qeyd olunduğu kimi Azərbaycanın müstəqilliyini əvvəlcə tanınmaq istəmirdi.Bu baxımdan da o, Azərbaycan qoşunlarının paytaxtdan çıxmasından başqa, AXC-nin bayrağını İngiltərə, Fransa, ABŞ cərgəsindən də çıxartdırdı. Həmçinin xalq kütlələrindən heç bir dayağı olmayan və "türklərin fitnələri"ilə yaradılan "Azərbaycan" adlı hökuməti tanımadığını da bildirdi [8, s.89].

Lakin bir qədər sonra Tomson bölgədə var olmaq üçün AXC hökumətinin dəstəyinə ehtiyac duyduğunu anladı. 1918-ci il dekabrın 28-də Tomson Xoyski hökumətinin Azərbaycanda yeganə qanuni hakimiyyət olduğunu bəyan etdi və müttəfiq komandanlığın bu hökumətə hərtərəfli yardım edəcəyini qeyd etdi [5, s. 40].

AXC-nin xarici siyasətinin əsas istiqamətlərindən biri gənc Respublikanın beynəlxalq cəmiyyətlər tərəfindən tanınması idi. Bu məsələ böyük dövlətlər tərəfindən, o cümlədən Böyük Britaniya da daxil olmaqla Paris sülh konfransında həll olunurdu. Konfransda iştirak etmək üçün AXC hökuməti parlamentin sədri Əli Mərdan bəy Topçubaşovun başçılığı altında diplomatik missiya təşkil etdi.

Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin əsas məqsədi hərhansı bir idarəetmə üsulunun bərqərar olunmasından asılı olmayaraq Rusiya ilə birləşdirilməsinə yol verməmək və paytaxtı Bakı şəhəri olmaqla müstəqil AXC-nin rəsmi tanınması idi.

Paris konfransı Avropaya İstanbul üzərindən gedən AXC hökumətinə hələ yolda ikən 1919-cu ilin yanvarın 18-də başladı. Burada AXC nümayəndələri Böyük Britaniya, ABŞ, İtaliya və Fransadan olan şəxslərlə Paris sülh konfransında iştirak etmək üçün danışıqlar aparırdılar. AXC nümayəndələrinin Parisə girişinə icazə verən ilk ölkə Böyük Britaniya oldu. 1919-cu il martın 6-da Topçubaşov İstanbuldakı ingilis komandanlığının nümayəndəsidən yazılı icazə aldı. Fransa öz razılığını yalnız aprelin 12-də verdi. Azərbaycan nümayəndələri isə yalnız mayın 9-da Parisə gəlibə bildilər [2, s.142].

Yeni müstəqil dövlət kimi AXC-nin güclü bir dövlət tərəfindən himayə olunmasına ehtiyac vardı. Bununla əlaqədar olaraq konfransda mandat məsləsinə baxılırdı. İclasların birində Topçubaşov bildirdi ki, "Hazırda bizim müstəqil dövlət kimi sərbəst yaşamağımıza can atmağa baxmayaraq biz bu məqamda, müddətini təyin edə bilmədiyimiz bu çətin vaxtda kənardan kömək və dəstək olmadan yaşaya bilməzdik. Əgər vəziyyət bu yerdədirsə, onda sağımıza və solumuza baxıb özümüzə himayədar və tərəfdaş tapmalıyıq. İstiqamətimiz ʹbelə müəyyənləşir" [1, s. 264].

AXC nümayəndələri öz ölkələri üçün arzu olunan himayədar və dəstəkçi kimi Böyük Britaniyanı hesab edirdilər.Böyük Britaniyanın siyasəti Azərbaycan hökumətinə hər şeydən qabaq ruslarla məsələdə çox vacib idi. Sovet Rusiyası ilə





münasibətlərdə AXC Böyük Britaniyanın mövqeyini öyrənib ona üstünlük vermək və öz addımlarını onunla razılaşdırmaq fikrində idi.

Britaniya hökuməti bəyan edirdi ki, hər bir ölkə öz maraqlarını və əlbəttə ki, öz məsuliyyətini dərk edərək bolşeviklərlə bu və ya digər sövdələşmələrə girməkdə azad və sərbəstdir və həmçinin Azərbaycan bolşeviklərlə birgə münasibətlərə daxil olmaq istəyirsə onda bunu özü müstəqil və öz məsuliyyəti altında etməlidir. Sovet Rusiyası ilə münasibətlər həm Azərbaycan, həm də Britaniya tərəfləri üçün mürəkkəb idi. Qeyd etmək lazımdır ki, Böyük Britaniya vahid və bölünməz Rusiyanın tərəfdarı deyildi. Bununla əlaqədar olaraq AXC ümid edirdi ki, Britaniya hökuməti Moskva hökuməti tərəfindən Cənubi Qafqaz Respublikalarını tam tanıyacaq və xeyirxah qonşuluq əsasında və iki xalq arasında normal iqtisadi əlaqələrin bərpa etmək zəmnində AXC ilə əlaqəyə girəcək.

Böyük Britaniya bolşevizmə qarşı yönəlmiş siyasət aparırdı. AXC hökuməti də analoji mövqe tuturdu. Bu məqsədlə Böyük Britaniyanın XİN 22 iyul 1919-cu ildə, əvvəllər Moskvada baş konsul olan Oliver Uordropu Cənubi Qafqaza baş komissar təyin etdi və bu niyyətlə onu bura göndərdi. Uordropun əsas vəzifəsi Cənubi Qafqazda olan siyasi vəziyyət haqqında məruzə etmək və bütün imkanlardan istifadə edərək Denkinin Könüllü ordusunun Cənubi Qafqaz Respublikaları ilə olan nifaqına son qoymaq idi. Uordropa ünvanlanmış teleqramların birində xarici işlər naziri lord Kerzon belə məlumat verirdi: "Siz hakimiyyətinzdə olan bütün vasitələrdən və imkanlardan istifadə edərək Gürcü və Azərbaycan hökumətlərini Dağıstanda bolşeviklər tərəfindən başçılıq edilən və maliyyələşən Denikinin ordusuna qarşı hər hansı bir özbaşına addımın qarşısını almalı və bu hərəkətləri həvəsləndirməməlisiniz" [3, s.575]. Buna cavab olaraq Uordrop Kerzona belə məruzə edirdi: "Bu gün mən artıq Azərbaycan hökumətinin nümayəndəsinə dedim ki, Dağıstana edilən hər hansı bir kömək və ya dəstək Əlahəzrət hökuməti tərəfindən ciddi nəzərdən keçiriləcək" [3, s.570].

Ümumilikdə, Britaniya hökuməti AXC hökumətinə tövsiyyə etdi ki, öz qoşunlarını Dağıstana göndərməkdən imtina etsin: Əks halda ingilislərin qənaətinə görə bu addım AXC-nin sərhədlərini təhlükə altında qoyar və Denikinin ordusu ilə münasibətləri korlaya bilər, çünki artıq bu ordu Şimali Qafqaza soxulmuşdu. Avropada olan Azərbaycan nümayəndələrinin üzvləri dəfələrlə bəyan edirdilər ki, Denikin kimi bolşeviklər yeni yaranmış dövlətləri Rusiyanın tərkib hissəsi hesab edirdilər və bu da gənc respublikalar üçün qəti qəbul edilməz idi. Bu məsələdə AXC hökuməti "Denikinin nöqteyi nəzəri ilə yox" Böyük Britaniyanın mövqeyi ilə hesablaşırdı [4,s.212]. Bu baxımdanda AXC hökuməti bolşeviklərdən və ağqvardiyaçılardan müdafiə olunmaq üçün ən böyük köməyi Böyük Britaniyadan gözləyirdi [4, s.373].

Azərbaycan diplomatları can atırdılar ki, imkan daxilində daha tez ölkənin müstəqilliyi tanınsın. Ancaq yalnız 9 aydan sonra 1920-ci ilin yanvarın 10-da Antanta ölklərinin Ali Soveti AXC-nin müstəqilliyini de-fakto olaraq tanıdı [7, s. 68]. De-fakto tanınması İttifaq dövlətləri tərəfindən AXC-ə dəstək əlamətini bildirirdi.

Bundan başqa Avropada olan Azərbaycan nümayəndə heyəti güclü maddi sıxıntı keçirirdi. Topçubaşov 9 ay ərzində Azərbaycan hökumətinə dəfələrlə nümayəndə heyətinin saxlanılması və işlərini görmək üçün maddi yardım göstərməkdən ötrü rəsmi teleqramlar və məktublar göndərmişdi. Ancaq AXC hökumətindən lazımi dəstəyin gəlmədiyi halda Topçubaşov kömək üçün rəsmi məktubla Britaniyanın hakim dairələrinə o cümlədən Böyük Britaniyanın Qafqazdakı Ali komissarı polkovnik-leytenant Klod Stoksa və Xarici İşlər Naziri lord Kerzona müraciət etdi. Müraciətlərində Topçubaşov xahiş edirdi ki, Azərbaycanın nümayəndə heyətinin üzvlərinin ehtiyaclarını ödəmək üçün və həmçinin Qərbi Avropanın müxtəlif şəhərlərində təhsil alan 78 azərbaycanlı tələbələr üçün 22 min fund-sterlinq borc versinlər [6, s.512].

Topçubaşovun ingilislərin onları maliyyələşdirmək üçün olan ümidi çox böyük və tutarlı idi. "Birinci dəfə deyil ki, nəhəng İngiltərənin nümayəndələri bizə mənavi dəstək göstərirlər. Biz həmişə ittifaq Ali Şüra tərəfindən bu ilin yanvarında Azərbaycanın de-fakto olaraq müstəqilliyin tanınmasında ingilis xarici siyasət idarəsinin rəhbəri lord Kerzonun xeyirxah təşəbbüsünü məmnuniyyətlə xatırlayırıq," -deyə Topçubaşov qeyd edird [6, s.46].

Britaniya qəzetləri öz müstəqilliyini müdafiə edən AXC hökuməti haqqında onu nüfuzdan sala biləcək bir sıra səhv informasiyalar nəşr edirdilər.Məsələn, 1920-ci il martın 3-də "Tayms" qəzeti Azərbaycan Hökumətinin "türk hərbi cinayətkarları Nuru paşa və Xəlil paşanın, həmçinin panturanist və panislamist ideyalarını təbliğ edən türkləri gizlədən" adlı məqalə çap etdi. Sonra martın 20-də "Tayms" qəzeti Azərbaycanın da cəlb edildiyi "Türklərin Qafqazdakı fitnələri" adlı növbəti məqaləsini çap etdi. Əslində bu kimi ittihamlar heç də AXC-nin xeyrinə deyildi. Bununla əlaqədar nəşr olunan yazılara görə Londonda olan nümayəndə heyyətinin sədri Topçubaşov "Tayms" qəzetinin baş redaktoruna xahişlə müraciət edərək bildirmişdi ki,onlar dəqiq araşdırmadan yazdıqları bu cür düzgün olmayn informasiyalara görə təkzib versinlər və yenidən nəşr etsinlər [8, s.39].

Bütün bunlara baxmayaraq ümumilikdə Britaniya-Azərbaycan əlaqələri pozitiv istiqamətdə cərəyan edirdi. 19 yanvar 1920-ci ildə Antanta Ali Şurası Cənubi Qafqaz dövlətlərinə, o cümlədən Azərbaycana silah-sursat və ərzaq yardımı göndərməyi qərara aldı. Bundan başqa AXC hökuməti Böyük Britaniyanın dəs-





təyinə inanaraq de-yure tanınmasına ümid bəsləyirdi. Bu məqsədlə fevralın 25-də Topçubaşov və nümayəndə heyətinin başqa üzvləri Londona gəldilər. "Azərbaycan" qəzetinin verdiyi məlumata görə nümayəndələrin Londona gəlişinin əsas məqsədi kimi Azərbaycanın müstəqillyini tanıyan ölkələrin Azərbaycanın de-yure kimi tanınmasına nail olmaq, həmçinin Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət üç respublikanın konfederasiyasını yaratmaq idi.

Beləliklə, Böyük Britaniya Azərbaycan Xalq Cumhuriyyətinin De-fakto tanınmasında mühüm rol oynamışdır. İttifaq dövlətləri tərəfindən Azərbaycan Xalq Cumhuriyyətinin De-yure tanınması Azərbaycan diplomatlarının gərgin mübarizəsinə baxmayaraq bu baş vermədi. Bu da öz növbəsində nəticə etibarı ilə Sovet işğalına yol açdı.

Hazırki şəraitdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk tanıyanlardan biri olan Böyük Britaniya ilə Azərbaycan Respublikası arasındakı münasibətlər yüksək səviyyədə inkişaf etmiş və davam etməkdədir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, Bakı: Elm, 2001,V cild, 608 s.
2. Azərbaycan tarixi, Ə.Quliyev və Ə.Sumbatzadənin red., Bakı: Azərbaycan SSR Elmlər akademiyası nəşriyatı 1967, II cild, 220 s.
3. Documents on Britsh Foreign Policy 1919-1939, First Series, volume III, London 1949, p.909
4. Həsənli C., Azərbaycan Xalq Cumhuriyyətinin xarici siyasəti (1918-1920), Bakı 2009, 470 s.
5. Həsənov C., "Birinci dünya müharibəsinin qurtarması ərəfəsində Bakı nefti ətrafında mübarizənin kəskinləşməsi", Azərbaycan neft sənayesinin tarixi üzrə birinci beynəlxalq konfransın əsərləri, ABŞ, Hyuston 1996 № 3, 150 s.
6. Həsənli C., Tarixi şəxsiyyətin tarixi: Əli Mərdan bəy Topçubaşov, Bakı 2016, 587 s.
7. Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, Bakı 1990, 120 s.
8. Yusifzadə S.Z., Birinci Azərbaycan Respublikası: İngilis–Azərbaycan münasibətlərinin tarixi, hadisələr, faktlar, Bakı, Maarif, 1998, 270 s.
9. Yusifzadə S.Z.," 1918–1920-ci illərdə İngilis-Azərbaycan münasibətlərində iqtisadi faktor", Bakı Universitetinin xəbərləri jurnalı № 3, 2003
10. Ziyadxanlı A., Azərbaycan, Bakı 1919, 140 s.

**THE PLACE AND THE ROLE OF THE UK IN BRINGING THE ISSUE OF AZERBAIJAN INTO THE SYSTEM OF INTERNATIONAL RELATIONS (1919-1920 years)**

**SUMMARY**

The article discusses the place and the role of the United Kingdom in bringing the issue of Azerbaijan to international relations. Note that the political situation in Azerbaijan between the bolshevik revolution in tsarist Russia and the years that the British left Baku has not been stable. However, the ANR government has managed to maintain its political presence . The author has widely commented on and researched in the article on the fight against the de facto recognition by the union states of the People's Republic of Azerbaijan and the recognition of Azerbaijan's independence as the de jure.

**МЕСТО И РОЛЬ ВЕЛИКОБРИТАНИИ В ВКЛЮЧЕНИИ ВОПРОСА АЗЕРБАЙДЖАНА В СИСТЕМУ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ (годы 1919-1920)**

**РЕЗЮМЕ**

В статье обсуждается место и роль Соединенного Королевства в привлечении вопроса Азербайджана к международным отношениям. Отметим, что между большевистской революцией в царской России и годами, когда британцы покинули Баку, политическая ситуация в Азербайджане не была стабильной. Однако правительству АНР удалось сохранить свое политическое присутствие. Автор широко комментирует и исследует в статье, статью о борьбе де-факто признания союзными государствами Азербайджанской Народной Республики и признания независимости Азербайджана де-юре.